# VƏTƏNİNƏ, MİLLƏTİNƏ BAĞLI TURAN ŞAİRİ

052



*Türk dünyasının böyük şairi Yavuz Bülənd Bakilərlə tanışlığım 1982-ci ilin iyuluna təsadüf edir. Mən o zaman dahi bəstəkarımız Üzeyir Hacıbəylinin ev-muzeyində çalışırdım. Yayın isti günləri idi. Birdən qapı açıldı və otağa iki nəfər daxil oldu. Qonaqları muzeylə tanış etməkdən ötrü qalxdım, eksponatları göstərmək üçün göstərici çubuğu götürdüm və qarşılarına keçərək: "Xoş gəldiniz!" – dedim. Qonaq gülümsəyərək zarafatla: – "Bizi döyməkmi istəyirsiniz?" – söylədi. Çox şirin Anadolu türkcəsində danışan müsafirin qardaş, həmişə həsrətində olduğumuz Türkiyədən gəldiyini anladım.*

*– Əstəğfürullah, nə danışırsınız, sizi dahi sənətkarımızın ev-muzeyi ilə tanış etmək istəyirəm", – deyə cavab verdim.*

*Qonaqları müşayiət edən cavan oğlan bu ucaboy, görkəmli, nurlu insanı təqdim etdi:*

*– Yavuz Bülənd Bakilər, Türkiyənin tanınmış şairi, mədəniyyət nazirinin müavinidir. "Xalqlar dostluğu" Cəmiyyətinin dəvəti ilə Bakıda qonaqdır. Mən isə cəmiyyətin əməkdaşı Elçin Şıxlıyam...*

Böyük Turan şairi Yavuz Bülənd Bakilərlə tanışlığımız beləcə yarandı. Mən muzeylə, Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığı ilə bağlı qonaqlara məlumat verdim. Hörmətli müsafir isə çox diqqətlə dinləyir, qeydlər aparırdı. Sonuncu otaqdakı Ağdam şəhərində Üzeyir bəy Hacıbəyli parkı və bəstəkarın oradakı abidəsinin şəklini onlara göstərəndə Yavuz bəy: "Mən də Ağdamdanam", – dedi. Çaşqınlığımı görən müsafir ulu babalarının XIX əsrin əvvəllərində Qarabağdan Türkiyəyə köçdüklərini söylədi. Elə o andan da Yavuz bəy mənim üçün doğma adama çevrildi. Sonra qohumluq əlaqələrimizin də olduğunu öyrəndik və artıq otuz üç ildir ki, bu nəcib, xeyirxah, millətini, vətənini canından çox sevən, hər zaman türklüyü ilə qürur duyan insanla, onun ailəsi ilə mehriban münasibətlərimiz davam edir. Mütəmadi görüşlərimiz olur, Yavuz bəy və qardaşı Naci bəyin sayəsində İstanbulu, Boğaziçini, Böyük adanı qarış-qarış gəzmişik, görməli yerlərinə, muzeylərinə valeh olmuşuq. Yadımdadır, 1994-cü ildə Yavuz Bülənd Bakilərin dəvəti ilə anamla bərabər İstanbula getmişdik, məni İstanbul Texniki Universitetinin nəzdindəki Türk Musiqisi Dövlət Konservatoriyasına konfransa dəvət etdilər. Tədbirdə türk dünyasının dühası Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığı haqqında məruzə söylədim. Çıxışım professor və tələbə heyəti tərəfindən böyük ehtiramla qarşılandı. Naci Bakilər də orada idi. Konfransdan sonra təşkilatçı konservatoriyanın professoru Süleyman Şənel qonaqların şərəfinə ziyafət verdi. Maraqlı görüşdən məmnun qalan Naci bəy mənimlə qürur duyduğunu, çıxışımı çox bəyəndiyini söylədi. Yəni onlarla hər görüşümüz tarixə dönür, yaddaşımıza həkk olunur, məqalələrə çevrilir. Böyük şairimiz, rəhmətlik Şahmar Əkbərzadənin təsis etdiyi və baş redaktoru olduğu "Mədəniyyət" qəzetində mənim 1996-cı ildə Yavuz Bülənd Bakilər haqqında "Azərbaycan ürəyimdə bir şahdamardır" adlı məqaləm işıq üzü görmüşdü. Həmin məqalə Selçuk Karakılıçın hazırladığı və 2006-cı ildə İstanbulda nəşr etdirdiyi "Yavuz Bülent Bakilere armağan" kitabına daxil edildi.



**"Yavuz Bülənd Bakilər həqiqətən Tanrının bəxş etdiyi nadir simalardandır. Onun adı nəinki Türkiyədə və Azərbaycanda, bütün türk aləmində məşhurdur. Yavuz Bülənd Bakilər dedikdə tanınmış şair, yazar, publisist, jurnalist, tədqiqatçı alim, mədəniyyət xadimi və sözün həqiqi mənasında böyük insan göz önündə canlanır. Onun şəxsiyyəti ilə sənəti bir-birini tamamlayır. Vətəninə, xalqına, dilinə, dininə, mədəniyyətinə, tarixinə, keçmişinə, gələcəyinə bağlı böyük, görkəmli şəxsiyyət göz önünə gəlir. Y.B.Bakilər insani keyfiyyətləri, həssaslığı, xoşgörülüyü, kübarlığı ilə də onu tanıyanların qəlbində özünə abidə ucaltmışdır.**

Bu yaxınlarda bizim tanınmış xanımlardan biri, vaxtilə "Lider" TV-də böyük şair haqqında "Azərbaycan ürəyimdə bir şahdamardır" adlı maraqlı veriliş hazırlayan Zöhrə Əliyeva dedi ki: "Yavuz Bilənd Bakilərin şeirlər kitabını məndən kimsə oxumağa götürüb, geri qaytarmayıb. Əgər mümkünsə, Yavuz bəy həmin kitabından yenə də hədiyyə etsin. Onun bütün yaradıcılığı, xüsusilə də "Şaşırdım kaldım işte" şeiri çox xoşuma gəlir". Mən də bunu Yavuz bəyə çatdırdım. Sağ olsun, Zöhrə xanıma avtoqrafla özünün "Harman" şeirlər kitabını göndərdi. Yəni Yavuz Bülənd Bakilər bu qəlbin sahibidir. Çox sadə, təvazökar, nəcib bir insandır.




Türkçülük aşiqi olan Yavuz bəyin həyat və yaradıcılığına nəzər salanda, söhbətlərini dinləyəndə onun kökünə, əslinə, nəslinə, türklüyünə son dərəcə sadiqliyinin şahidi oluruq. Yavuz Bülənd Bakilərin babaları Türkiyəyə Qarabağdan köçmüşlər. Sivasın Gürün qəsəbəsində Çarçıbaşı məhəlləsində vəfat edən və orada bir təpə üstündə torpağa tapşırılan atasının babası 110 il yaşayıb və "Hacı Mahmud əl-Qarabaği" imzası ilə tanınıb. İndi Yavuz bəy ulu babasının tərtib etdiyi şəcərənin əsasında on bir arxa dönəninin, ulu babalarının adlarını bilir. İlk ulu babası Hacı Əli Murad və onun oğlu Hacı Əli Fərəhşad Qarabağda dünyaya gəlmiş, yaşayıb da vəfat etmişlər. İmperialist çar ordusu Azərbaycanı işğal edəndən sonra onların ailəsi Osmanlı dövlətinə sığınmaq məcburiyyətində qalmışdır. Yavuz bəyin Qarabağdan Türkiyəyə gedən ulu babasının adı Məhəmməd Sabirdir. O, yaxınlarıyla birlikdə Maraş şəhərinə yerləşmişdir. Məhəmməd Sabir şair imiş. Hacı Əli Fərəhşadın oğlu olan Məhəmməd Sabir Maraş şəhərində yaşayıb, orada da dünyasını dəyişib. Məhəmməd Sabirin vəfatından sonra övladları yenidən Azərbaycana geri dönmək istəsələr də, dövrün Osmanlı idarəsi onlara mane olub. O zaman ailənin bir qismi Ağrı, bir qismi Qars, bir qismi də Sivas şəhərlərində yerləşib. İndi onların qohumları Ankarada, İzmirdə və İstanbulda yaşayırlar. Yavuz bəyin atası Cezmi Bakilər Türkiyənin müxtəlif şəhərlərində Nüfus (əhalinin siyahıya alınması) idarəsində müdir vəzifəsində çalışıb. Ədəbiyyatla, tarixlə çox maraqlanıb. Anası Hayriyə Bakilərin isə təhsili olmayıb, lakin gözəl səsi və danışıq qabiliyyəti varmış. Xalq yaradıcılığına dərindən bələd olan Hayriyə xanım nağıllar söyləyər, bayatıları, xalq mahnılarını gözəl bilər, oxuyarmış. Yavuz bəy anasının nağılları, bayatıları, laylaları ilə böyüyüb. Hayriyə xanım on iki övlad dünyaya gətirib. Lakin doqquz uşaq elə kiçikkən dünyalarını dəyişmiş, indi bir bacı, iki qardaş qalmışlar: Yavuz bəydən beş yaş böyük olan bacısı Şükran Orbay, Yavuz bəy və bir də Yavuz bəydən on yaş kiçik qardaşı Naci Bakilər. Hayriyə xanım 1978-ci ildə, Cezmi bəy isə 1980-ci ildə vəfat etmiş, Sivas torpağında əbədiyyətə qovuşmuşlar.

...Nəslinin layiqli davamçısı, sənətkarlığı ilə qürur duyduğumuz, böyük türk dünyasının azman şairi Yavuz Bülənd Bakilər 23 aprel 1936-cı ildə



Sağdan: Səadət Qarabağlı, professor Ramazan Xəlilov, şair-publisist Şahmar Əkbərzadə, Yavuz Bülənd Bakilər, tarzən Sərvər İbrahimov, xalq artisti, bəstəkar Hacı Xanməmmədov və başqaları. 1997-ci il

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası



Yavuz Bülənd Bakilər, Bəxtiyar Vahabzadə ilə həyat yoldaşı Dilarə xanım və Əhməd Şmide

Türkiyənin Sivas şəhərində dünyaya gəlib. İlk və orta təhsilini atası Cezmi Bakilərin işi ilə əlaqədar olaraq Sivas, Qaziantep və Malatyada alıb. 1960-cı ildə Ankara Universitetinin hüquq fakültəsini bitirib. 1961–63-cü illərdə Ankarada, Çankayada prezidentin mühafizə alayında əsgərlik xidmətində olub. Əsgərlikdən sonra Ankarada Metal-İş Federasiyasında təhsil və araşdırma müdiri işləyib, 1964–68-ci illərdə Ankara radiosunda çalışıb. 1968–75-ci illərdə Sivas şəhərində vəkillik edib, siyasət aləminə atılaraq "Ədalət" partiyasının üzvü olub. Partiyanın Sivas təşkilatına rəhbər seçilib. 1975-ci ildə yenidən Ankaraya dönüb, burada əvvəlcə Nazirlər Kabinetinin Torpaq və Kənd Təsərrüfatı Reforması Nazirliyində hüquq məsləhətçisi işləyib, sonra Ankara Dövlət Televiziyasında çalışıb. 1976–79-cu illərdə dövlət televiziyasında müxtəlif mədəniyyət proqramları hazırlayaraq tamaşaçıların rəğbətini qazanıb. "TRT"dən Mədəniyyət Nazirliyinə müşavir vəzifəsinə dəvət olunub. 12 sentyabr 1980-ci il hərbi çevrilişindən sonra mədəniyyət nazirinin müavini vəzifəsinə təyin edilib. 1993-cü ildə Süleyman Dəmirəl Baş nazir olarkən Yavuz Bülənd Bakilər Mədəniyyət Nazirliyindən Nazirlər Kabinetinə Baş nazirin müşaviri vəzifəsinə gətirilib. Lakin Yavuz bəy 1994-cü ildə, vaxtından əvvəl öz xahişi ilə işdən ayrılaraq təqaüdə çıxıb. 1995-ci ildə Ankaradan İstanbula köçüb.

Yavuz Bülənd Bakilər hansı vəzifədə çalışmasından asılı olmayaraq xalqına, millətinə can-başla xidmət göstərib, vətəninin çiçəklənməsi naminə özünün bilik və bacarığını əsirgəməyib. Hələ dövlət məmuru işləyərkən "Zaman", "Türkiyə", "Tərcüman" və başqa mətbuat orqanlarında müntəzəm çıxış edib, maraqlı, düşündürücü, aktual, həyatla səsləşən məqalələr yazıb.

...Ciddi yaradıcılığa 1952-ci ildə başlayan şair-publisist bir daha qələmi əlindən yerə qoymur. Ustad yazar bir-birinin ardınca kitablar nəşr etməyə başlayır. Onun ilk şeirlər kitabı 1962-ci ildə "Yalnızlıq" adı ilə işıq üzü görüb. Ardınca "Duvaq" (1970), "Səninlə" (1980), "Harman" (1996) şeirlər kitabları nəşr olunub. Bunlardan əlavə, Yavuz bəy bir neçə antologiya hazırlayıb. "Şeirimizdə ana" (1967) və "Sivasa şeir" (1973) tez bir zamanda oxucular arasında geniş yayılıb. Onun "Aşıq Veysəl" adlı kitabı 1986-cı ildə dörd yüz əlli min tirajla beş dəfə çap olunub. Bundan sonra "Mehmet Akifde çağdaş Türkiyə idealı" (1986), "Sözün doğrusu" ikicildliyi (1999), "Arif Nihat Asyanın sevgi məktubları" (2001), "Gedənlərin ardından" (2005), "Arif Nihat Asya ihtişamı" (2007), "Azərbaycan ürəyimdə bir şahdamardır" (2009) kitabları oxucuların xahişi ilə dəfələrlə nəşr edilib.

Yavuz Bülənd Bakilərin ilk publisistik kitabı isə "Üsküpdən Kosovaya" adlanır. Türkiyə Mədəniyyət Nazirliyi və Xarici İşlər Nazirliyinin birgə qərarı ilə hər il keçmiş Yuqoslaviyanın Struqa şəhərində düzənlənən şeir axşamlarına Yavuz Bülənd Bakilər göndərilir. Ustad şair tədbirdə çıxış edir və şeir axşamlarından televiziya proqramı hazırlayır. Oradakı türk abidələrini ilk dəfə televiziya ekranlarında işıqlandıran Yavuz bəy olub. Həmin süjetlər bütün Türkiyədə böyük maraqla qarşılanıb. 1950-ci ildən turançılıq eşqi ilə yaşayan Yavuz Bülənd Bakilər Yuqoslaviya türkləri ilə bağlı düşüncələrini geniş ictimaiyyətə çatdırır. Ankarada çıxan "Hisar" jurnalının 12 sayında dərc olunmuş Yuqoslaviya xatirələri çox böyük maraq doğurur. 1979-cu ildə həmin yazılar Türk Ədəbiyyatı Vakfı tərəfindən "Üsküpdən Kosovaya" adı ilə nəşr edildi. Bu kitabın uğurundan sonra böyük yazar nəsr, publisistika sahəsində daha da ciddi çalışmağa başladı. 1980-ci ildə Mədəniyyət Nazirliyində nazir müavini vəzifəsində çalışarkən Beynəlxalq Daşkənd Festivalına nümayəndə heyətinin rəhbəri qismində qatılan Yavuz bəy, Daşkənddə, Səmərqənddə, Buxarada və s. yerlərdə gördüklərini "Türkistan, Türkistan" adı ilə qələmə aldı. Kitab ilk dəfə 1986-cı ildə işıq üzü gördü. Həm "Üsküpdən Kosovaya", həm də "Türkistan, Türkistan" Türkiyədə dəfələrlə nəşr edilib və Ali Təhsil Nazirliyinin qərarı ilə universitetlərdə dərslik kimi istifadə olunur.

**Haşiyə:** Yavuz Bülənd Bakilərin Azərbaycana ilk gəlişi elə 1980-ci ilə təsadüf edir. Beynəlxalq Daşkənd Festivalından birbaşa Bakıya gələn şair böyük həyəcanla Azərbaycanın paytaxtına ayaq basdı. Uzun illər həsrətini çəkdiyi doğma vətənini görmək şərəfinə nail oldu. Qarabağa getməyə isə icazə vermədilər. Nə qədər çalışsa da, ulu babalarının vətənini, onların məzarlarını ziyarət etmək qismət olmadı. Yavuz bəyi yalnız Bakının gəzməli, görməli yerlərinə apardılar. Elə həmin vaxt onu ilk dəfə Üzeyir Hacıbəylinin ev-muzeyinə də gətirmişdilər. O zaman mən Yavuz bəylə görüşə bilməmişdim. Ancaq türkləri çox sevdiyimi bilən iş yoldaşlarım mənə onun barəsində danışdılar. Dedilər ki, Yavuz bəyi muzeylə tanış edən xanım rusdilli olduğundan azərbaycanca çəkinə-çəkinə danışırmış. Bunu görən söz sərrafı ona: "İnsan öz ana dilində danışmaqdan utanmaz", – deyə iradını bildirib. Bütün bunları eşidəndən sonra muzeyin fəxri qonaqlar kitabını açıb orada "Yavuz Bülənd Bakilər" imzası ilə yazılan çox səmimi ürək sözlərini oxudum və həmin vaxt muzeydə olmadığıma təəssüfləndim. Sonrası artıq möhtərəm oxucuya məlumdur...

...Doğma Qarabağı isə yaxın dostu, Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadənin sayəsində 1987-ci ildə ziyarət edə bildi. Əcdadlarının vətəni Ağdam şəhərində unudulmaz xatirələr yaşadı. Ancaq cənnət Şuşamızı görmək ona qismət olmadı. Çünki o vaxt Yavuz bəyin Şuşaya getməsi mümkün olmadı. 1992-ci ildən isə bu şahanə şəhər işğal altındadır. İndi hamımız doğma Şuşamıza həsrətik. Lakin cəfakeş, həsrətli vətən oğlunun Şuşaya buraxılmadığını görən xalqımızın məşhur alimi Xudu Məmmədov və görkəmli şairimiz Şahmar Əkbərzadə Yavuz bəy üçün Şuşadan torpaq, Cıdır düzündən isə məşhur xarıbülbül çiçəyi gətirmişdilər. Amma nə yazıq ki, o, vətən torpağını Türkiyəyə keçirə bilmədi. Moskva gömrükxanasında əlindən aldılar. Deyirlər, bərk kövrələrək bir ovuc torpaqdan zülümlə ayrılıbmış Yavuz bəy. Xarıbülbülü isə aparıb, bağçasında əkib, lakin Şuşa torpağından başqa heç yerdə bitməyən bu çiçək Türkiyədə də əmələ gəlməyib. Bütün bu olaylardan həssas qəlbli bir şairin nə qədər iztirablar çəkdiyini anlamaq o qədər də çətin deyil.

**Azərbaycan sevdalısı, "Azərbaycan ürəyimdə bir şahdamardır" şeirinin müəllifi, iki övlad, iki nəvə sahibi Yavuz Bülənd Bakilər vətənə hədsiz sevgisindən dolayı hətta qızına "Aybala" ismini verib. Uşaqlığından yadigar olaraq anası Hayriyə xanımın övladlarına "ay bala" xitabını qızının adında yaşadır. Yavuz bəydən sonra Türkiyədə Aybala adı çoxalıb. "Can Azərbaycan" ifadəsini də ilk dəfə böyük vətənpərvər Yavuz Bülənd Bakilər Türkiyə ədəbiyyatına, mətbuatına gətirib.**

Vətən təəssübkeşi olan Yavuz Bülənd Bakilər vətənimizin, eləcə də Azərbaycan poeziyasının, şair və yazıçılarının çox böyük təbliğatçısıdır. O, Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya", "Fəryad", "İkinci səs" (1991) və "Göytürklər", Özümüzü kəsən qılınc" (1998) pyeslərini Türkiyə türkcəsinə uyğunlaşdıraraq Türkiyə Mədəniyyət Nazirliyinin köməkliyi ilə kitab şəklində çap etdirdi. Bundan əlavə, Həsən Həsənovun "Brüsseldən məktublar" adlı dram əsərinin tamaşaya qoyulması üçün İstanbul Böyük Şəhər Bələdiyyəsi qarşısında məsələ qaldırıb. Əsər münsiflər heyətinin "oynanıla bilər" qərarını alıb.

Böyük turançı hər zaman Türkiyə sərhədlərindən kənarda yaşayan soydaşları ilə müxtəlif vasitələrlə əlaqə qurur, türk abidələrindən bəhs edir, məqalələr yazır, televiziya proqramları hazırlayır, konfranslar keçirir. Türkiyənin 81 şəhərinin 70-də maraqlı mövzularla çıxış edən böyük söz ustası tamaşaçıların rəğbətinə, sevgisinə layiq görülüb. Yavuz Bülənd Bakiləri saatlarla dinləmək mümkündür. Eyni zamanda çox səmimi, dürüst insan, göründüyü kimi olan, olduğu kimi görünən şəxsiyyətdir.

Yavuz Bülənd Bakilər çox maraqla baxılan və dinlənilən televiziya və radio proqramlarının müəllifidir. SSRİ dağılandan sonra Türkiyə Dövlət Televiziyasında ("TRT") 66 proqram hazırlayıb. "Samanyolu" televiziyasında isə 35 verilişə imza atıb. "Bizim türkümüz" adı altında Azərbaycana və Orta Asiya respublikalarına həsr etdiyi bu verilişlər hədsiz maraqla qarşılanıb. "Üsküpdə türk əsərləri" TV proqramları ilə birgə, yorulmaz publisist 102 televiziya proqramını tamaşaçıların ixtiyarına verib, "Samanyolu" televiziyasında "Sözün doğrusu" proqramını həm hazırlamış, həm də aparıcısı olmuşdur. Bu verilişlərdə, o, demək olar ki, tamaşaçılara ustad dərsləri keçib. Türk dilinin təmizliyi, saflığı, düzgün yazılışı, danışıq tərzi, mədəniyyətimizin, tariximizin, abidələrimizin araşdırılması, düzgün təhlili, qorunması, gələcək nəsillərə doğru-düzgün çatdırılması yollarını göstərib.

Vətən, xalq onu sevənləri, ona layiqincə xidmət edənləri hər zaman qiymətləndirməyi bacarır. Yavuz Bülənd Bakilərin də vətən, millət yolunda təmənnasız fəaliyyəti həm Türkiyədə, həm də Azərbaycanda dəyərləndirilib. O, qırxdan çox mükafata layiq görülüb. Azərbaycanda "Asiya" və Gəncə universitetlərinin "Fəxri ədəbiyyat doktoru" titulu alıb. Amma onun üçün ən böyük ödül xalqının məhəbbəti, sevgisidir. Yavuz Bülənd Bakilər vətəninin, xalqının, milli dəyərlərinin aşiqi, fədaisi, ulu türk dünyasının qüdrətli oğlu, vətəninə, millətinə bağlı Turan şairidir!

Səadət Qarabağlı



Yavuz bəyin atası Cezmi bəy, anası Hayriyə xanım və qardaşı Naci Bakilər. 60-cı illər